# ADBTİA-nın ELM VƏ TƏHSİLİNİN AVROPAYA İNTEQRASİYASI

p.e.d., prof. Dilqəm Quliyev
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Xülasə**: Məqalədə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dünya və Avropa ali təhsil məkanına inteqrasiya sisteminin tədqiqi, Azərbaycanda milli hökumətin yarandığı ilk günlərdə xalqın maariflənməsi, ali təhsil ocaqlarının yaradılması, təhsilin dünya təhsil sisteminə və ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası, təhsilin maddi-texniki bazası, ali təhsil müəssisələrində təhsilin keyfiyyəti və rəqabətqabiliyyətli kadr hazırlığı, müstəqillik əldə etdiyimiz dövrdən bəri yeni təhsil sisteminin təşkili, onun inkişafı dövlətçilik siyasəti, ali təhsil sahəsində proqramların hazırlanması, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının fəaliyyətinin yenidən qurulması və genişləndirilməsi, akademiyanın bir neçə xarici universitetlərlə əməkdaşlığı haqqında və başqa problemlər öz həllini tapmışdır.

**Açar sözlər:** Dünya təhsil sistemi, Avropa ali təhsil, Azərbaycanda təhsil, ali təhsil müəssisələri, idman akademiyası, inteqrasiya, maddi-texniki baza, kadr potensialı, sivil ölkələr, tam orta təhsil, orta peşə-ixtisas təhsili, elmi-tədqiqat işləri, informasiya-kommunikasiya texnologiyaları, boloniya, bakalavr, magistr, tədris proqramı, “idman menecmenti”, “İdman jurnalistikası”, İdman Tibbi və Reabilitasiya.

Ölkəmizdə təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini və Boloniya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında” 31 yanvar 2008-ci il tarixli sərəncam imzalanıb. Həmin sərəncamın birinci bəndinə əsasən «2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı» hazırlanıb və Nazirlər Kabineti tərəfindən təsdiq edilib. Dövlət Proqramının icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən fəaliyyət planı hazırlanıb. [2]

Azərbaycanda təhsilin dünya təhsil sisteminə və ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesi sürətlə inkişaf edir.

Azərbaycan təhsili güclü maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir. Artıq ölkəmiz getdikcə Avropa təhsilinə daha sürətlə inteqrasiya olunur. Bu gün Azərbaycan təhsili, mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir.

Belə bir perspektivə görə inteqrasiya olunan ölkə özündə aşağıdakı komponentləri birləşdirməlidir: gələcək müəllimləri seçmə sistemi, baza pedaqoji təhsilin sertifikasiyası, müəllim peşəsinə giriş fazası, müəllimlərin peşə üzrə fasiləsiz inkişafı, müəllimlərin peşə üzrə ixtisaslarını artırma imkanları, tədqiqatlar səviyyəsində məktəbin inkişafında iştirak etmək. [4,9,14]

Hər bir yeni yaradılan dövlətin, müstəqillik qazanmış bir respublikanın ən ümdə vəzifələrindən biri öz milli təhsil sisteminin yaradılmasına, bu sistemin sivil dövlətlərin təhsili səviyyəsinə yüksəldilməsinə nail olmaqdır. Müstəqillik əldə etdiyimiz dövrdən bəri yeni təhsil sisteminin təşkili, onun inkişafı dövlətçilik siyasətinin ən önəmli uğurlarından hesab edilməlidir.Təhsil islahatımızda yeni prinsiplərə, tələblərə tezliklə sirayət olunmalı, humanistləşdirmə, diferensiallaşdırma və fərdiləşdirmə yolları ilə pedaqoji təfəkkürü formalaşdırıb uğurlar, nailiyyətlər əldə edə bilərik.

Ümummilli lider Heydər Əliyev deyirdi: “Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır. Bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıb... Bu, XX əsrdə bizim

əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik...” [16]

Ali təhsil tam orta təhsil və orta peşə-ixtisas təhsili bazasından cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssis hazırlığını təmin edir.

Məlumdur ki, ali təhsil müəssisələrində təhsilin keyfiyyəti və rəqabətqabiliyyətli kadr hazırlığı bir sıra amillərdən asılıdır. Həmin amillər içərisində müasir tələblərə cavab verən maddi-texniki baza və infrastruktur, o cümlədən kitabxanalar və laboratoriyalar, cəmiyyətin inkişaf tələblərinə uyğun məzmun, həmin məzmunu özündə əks etdirən dərslik və dərs vəsaitləri, çevik idarəetmə və ən başlıcası isə yüksək peşəkarlığa malik professor-müəllim heyəti daha əhəmiyyətli yer tutur.[7,9,10,12]

Respublikamızın və xarici ali məktəblərin birgə proqramlarının yaradılma siyasətinin və asılılığının təhlili, həm Avropa birgə proqramlarının, həm də Azərbaycan təhsil sisteminin inkişafının Avropa təhsil sistemindən təcrid vəziyyətinin dəf edilməsilə bağlı məqsəd və ma raqların mövcudluğunu göstərir. Avropa universitetləri üçün Azərbaycan ali məktəbləri ilə birgə proqramlar yaradılmasında başlıca prioritetlərdən biri yeni təhsil bazarında çıxışdan, tələbələrin cəlb edilməsinin genişləndirilməsindən, onların diplomlarının əmək bazarında mövqelərinin və tanınma dərəcəsinin gücləndirilməsindən ibarətdir. Eyni zamanda Azərbaycanın müəllim və tədqiqatçıları üçün daha əlverişli şərait yaradılmasından və ali məktəblərin beynəlxalq rəqabətqabiliyyətliliyinin möhkəmləndirilməsindən ibarətdir.

Beləliklə, ADBTİA-nın ali təhsil müəssisəsi Avropa universitetləri ilə birgə proqramlar yaratmağın ilk prioritetlərindən biri öz diplomlarının tanınmasının həyata keçi rilməsidir. Bununla yanaşı Avropa universitetləri ilə qarşılıqlı əlaqələr sahəsində öz akademik potensialının möhkəmləndirilməsi, proqramlarının keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin artırılması, akademik personalının inkişafının və tələbə təhsilinin yeni böyük imkanlarının yaradılmasının mümkün olmasıdır. Tələbələr öz gələcək peşələrinə yiyələnməkdə, zəngin sosial-mədəni təcrübə, Avropada və dünyada onun peşəsinə gələcəkdə böyük tələbat olacağına zəmanət əldə etməkdə əlavə imkanlar qazanır. Bu isə Azərbaycan ali məktəblərinin Avropa universitetləri ilə əməkdaşlıq şəbəkəsinə daxil olmağın əsaslarından biridir. Bu kanal ölkəmizin ali məktəblərinin Avropa ali təhsil məkanına real inteqrasiyasını təmin edir. Azərbaycan və xarici ali məktəblərin birgə proqramlarının məzmununun inkişaf etdirilməsində praktik addımların daha aydın olması üçün fəaliyyətdə olan proqramların təcrübəsindən istifadə etmək faydalıdır.

Biz geniş beynəlxalq əməkdaşlıqda iştirak edə billərik və buna görə də bu əməkdaşlığa yol açmaq, həm də Avropaya və Amerikaya eyni vaxtda pəncərə açmaq bizim üçün başlıca məsələlərdən biridir.

Ümumiyyətlə, Qərb tərəfin maraqlarının əsasında dayanan aşağıdakılardır:

- kənardan, ilk anda gənc universitetlər tərəfindən yeni təhsil xidmətləri bazarının açılması imkanları, həm milli, həm də dünya bazarında Qərb universitetlərinin və biznes məktəblərinin beynəlxalq nüfuzunun yüksəldilməsi, müəllim və təşkilati-inzibatçıların təlim keçmələri, birgə elmi araşdırmalar, müəyyən maliyyə mənfəətləri. [9,10]

Beləliklə, ADBTİA-nın dünya və Avropa ali təhsil müəssisələri arasında birgə proqramların yaradılmasında məqsəd yeni baza, bilik və texnologiyaları əldə etməkdir. Bu isə azərbaycanlı iştirakçılara birgə təhsil layihələrinə uyğunlaşmağa imkanlar verir. Bu təhsil layihələri hazırlanarkən tərəflərin məqsəd və motiviasiyalarının əsasında tərəfdaşlığın Qərb və Azərbaycan iştirakçılarının kompetensiyalarının başlanğıc yığımındakı fərq dayanır. Əməkdaşlıq tərəfdaşların maraqlarının müəyyən sahələri ilə uzlaşdıqda və ya bir-birini tamamladıqda mümkün olur.

Beləliklə, ADBTİA-nın dünya və Avropa təhsil layihəsi tələb olunan kimi, bu olduqca məsrəfli və son dərəcə çətin başa gələn bir işdir. Zəngin kitabxana, texniki təlim vasitələri, geniş şaxəli inzibati struktur və texniki dəstək olmalıdır. Azərbaycan təhsil ekspertləri qeyd edirlər ki, tərəfdaşlığın yaradılmasına maliyyə qoyuluşu yüksək olmalıdır. Hazırlıq mər-

haləsində bu, ilk öncə çoxlu sayda ezamiyyətlər, danışıqların təşkili, dil baryerinin aradan qaldırılması ilə bağlı xərclərdir. Bütövlükdə, bir sıra təhsil müəssisələri xarici dillərin öyrənilməsini yenidən təşkil etməli olurlar, çünki azərbaycanlı iştirakçıların ingilis dilindən biliyi tərəfdaşlar arasında professional ünsiyyət üçün lazimi səviyyədə deyildir. Birgə layihələrin infrastrukturunun yaradılması, dil bilən ixtisaslı müəllimlərin cəlb edilməsi və əmək haqqının ödənillməsi üçün maliyyə vəsaiti qoyulması tələb olunur. Heç vaxt nüfuzlu azərbaycanlı müəllimlər birgə layihədə özləri xərcini çəkib (aylıq əmək haqqı aşağı olduğu üçün) Qərb təhsil sistemində mövcud olan qaydalara və normalara uyğunlaşmağa razı olmurlar. [4]

Birgə proqramlar reallaşdırılarkən onun təşkili mexanizmi və tərəfdaşların qarşılıqlı fəaliyyətinin idarəetmə sis temlərinin yaradılması daha böyük çətinlik meydana çıxarır. Əməkdaşlığın uğurlu faktorları məhz burada gizlənir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyinin fikrincə effektli əməkdaşlıq üçün, tərəfdaşlar tərəfindən ayrılan məqsədlərin mövcudluğu, birgə proqramlar vasitəsilə mənimsəmək niyyətində olduqları və texniki sahələrdəki iqtisadi maraqlarda öz əksini tapmalıdır. Çünki əməkdaşlığın məqsədləri bütün hallarda ümumi maraqlar əsasında razılaş dı r ı lmış ol ma l ıdır. Baxmayaraq ki, razılaşdırılmış məqsədlər tərəfdaşların fərdi məqsədləri ilə üst-üstə düşməyə də bilər. [15]

Birgə proqramın səmərəli işləməsindən ötrü tərəflərin hər biri, tərəfdaşın səmərəli və doğru əməkdaşlıq etmək istəyinə və qabiliyyətinə kifayət qədər hazır olmalıdır. Nəzərə almaq lazımdır ki, tərəfdaşların əməkdaşlığı mahiyyət etibarilə hər zaman özünəməxsus kompromis təsiri bağışlayır: hər iştirakçı ilk növbədə öz şəxsi maraqlarını əldə rəhbər tutur, lakin işlərinin normal fəaliyyəti üçün onu qabartmamalı olur.

Birgə proqramların uğurlu inkişafı müxtəlif qrupların və ayrı-ayrı fərdlərin qısamüddətli məqsədlərini və maraqlarını, müvafiq təhsil təşkilatının daxili inkişafının müvafiq tələblərinin və onların xarici mühitlə qarşılıqlı əlaqəsinin uzunmüddətli hədəfləri ilə razılaşdırmaq kimi təsəvvür edilir.

Bu gün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası idman t əhsili sahəsində yüksək ixtisaslı mütəxəssislər hazırlamaq üçün bütün imkanları yaradan müasir ali təhsil məktəbidir.

Akademiya idman təhsilini dünya standartlarına uyğunlaşdırmaq, təhsilin keyfiyyətini artırmaq və beynəlxalq əmək bazarında rəqabət qabiliyyətinə malik mütəxəssislər hazırlamaq kimi hədəfləri qarşısına qoymuşdur.

**Diaqram 1.**




***Professor-müəllim heyətinin elmi dərəcələrinin qrafiki***

Bu məqsədlərə nail olmaq üçün akademiyanın rektoru Fuad Hacıyevin fəaliyyəti nəticəsində bu ali təhsil ocağında 2016-cı ildən başlayaraq ardıcıl islahatlar aparılır, tam yeni infrastruktur yaradılır (elektron kitabxana, tədris laboratoriyaları, sürətli internet və s.), təhsil imkanları genişləndirilir (distant və onlayn təhsil imkanları, İKT-nin tətbiqi, tələbə və professor-müəllim heyətinin mübadiləsi, elmi-tədqiqat işlərinin aparılması və s.), beynəlxalq təcrübə öyrənilir və beynəlxalq əməkdaşlıqlar qurulur, yeni " İdman jurnalistikası" və " İdman t ibbi və rabilitasiya"magistr ixtisasları yaradılmış, Azərbaycanın artıq formalaşmış idman ənənələrini nəzərə alaraq, hazırda Böyük Britaniyanın Sheffield Hallam Universty ilə birgə "İdman menecmenti" və "İdman jurnalistikası" magistr ixtisasları üzrə kurikulum hazırlanmışdır. [6]

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2018-ci ildə aparılan elmi-tədqiqat işləri əsasən 3 istiqamətdə

aparılır: [5]

1.Bədən tərbiyəsində kütləvilik və sağlam həyat tərzinin formalaşdırılması;

2.Peşəkar idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi;

3.Bədən tərbiyəsi və idman fəaliyyətinin təşkili

Akademiyanın professor-müəllim heyəti tərəfindən 172 elmi məqalələr Azərbaycanda, MDB ölkələrində və Avropada dərc edilmişdir (2018).

Bununla yanaşı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının “İdman menecmenti” və “İdman jurnalistikası” ixtisasları üzrə magistr tələbələri Birləşmiş Krallığın təhsil-təcrübəsi ilə yaxından əməkdaşlıq edirlər. Əməkdaşlıq nəticəsində tələbələr, İngiltərənin London, Şeffild, Leeds, Manchester, Lafboro, Rugby, York şəhərlərində yerləşən müxtəlif idman ali təhsil müəsissələrində və idman obyektlərində olmuş, habelə həkim-magistrantlar üşün UCL hospitalları, UCL İdman Tibbi İnstitutu, İngilis İdman İnstitutu, Chelsea Futbol Klubunun Tibbi klinikası, özəl reabilitasiya klinikalarında təhsil-təcrübə seminarları keçirilmişdir. Bundan əlavə, magistrantlar ELEVATE "The Arena of Physical Activity, Health and Performance" Beynəlxalq İdman tibbi və reabilitasiya konfransında fəal iştirak etmişdirlər. 14 günlük proqram ərzində tələbələri 2 universitetdə 4 modul üzrə mühazirələr keçirilmiş, 9 idman məkanına səfər olunmuş, 3 şəhərə mədəni səfər təşkil olunmuşdur. [6]

İngilis dilli magistr proqramlarının, ilk növbədə isə “İdman tibbi və reabilitasiya” magistr proqramının beynəlxalq tanınması üçün akademiyanın beynəlxalq akkreditasiyasına və reytinqlərdə öz əksini tapmasına zərurət yaranmışdır. QS Ali Təhsil Reytinqinə görə dünyada 7-ci yerdə olan UCL Universiteti ilə birgə akademik proqramın olması bu prosesin daha sürətli və effektiv olmasına kömək edə bilər.

Hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının bakalavriat və magistratura təhsil səviyyələrində 15 xarici vətəndaş təhsil alır. Onlardan biri – Ghenadie Cislari (Moldova) magistratura səviyyəsində, digər 14 tələbə isə bakalavriat səviyyəsində təhsil alırlar.

Bolqarıstanın "Vassil Levski" Milli İdman Akademiyası, Belarusiya Respublikasının Belarusiya Dövlət Bədən Tərbiyəsi Universiteti, eyni zamanda Belarusiyanın Milli Elmlər Akademiyasının Fiziologiya və Genetika İnsitutları, Gürcüstanın Gürcü Dövlət Bədən Tərbiyəsi və İdman Pedaqoji Universiteti ilə anlaşma memorandumları imzalanmışdır. İmzalanmış memorandumlar çərçivəsində akademik və tələbə heyətin mübadiləsi, birgə elmi tədqiqatların aparılması və təlim, seminar, konfransların keçirilməsi nəzərdə tutulmuşdur. [6]

ERASMUS+Mübadilə Proqramı (Key Action 1) Proqramı çərçivəsində Türkiyənin Afron Kocatepe Universiteti, Kastamonu Universiteti və Macarıstanın Fiziki Tərbiyə Universiteti ilə 2018-2020-ci illər üçün müqavilə imzalanmışdır. MEVLANA Mübadilə Proqramı çərçivəsində Türkiyənin Erciyez Universiteti i l ə müqavilə imzalanmışdır.

İngilis dilli magistr ixtisaslarında müxtəlif fənlərin tədrisi üçün 10 (on) xarici müəllim cəlb olunmuşdur. Eyni zamanda, hər üç magistr ixtisası çərçivəsində magistrantlar bir modulu Böyük Britaniyada keçmişdirlər.

Tədrisə cəlb olunan xarici müəllimlərdən 4 nəfər magistrantların magistr dissertasiyalarının elmi rəhbəri kimi cəlb olunmuşdur. “İdman tibbi və reabilitasiya” magistr ixtisasında elmi rəhbərlər Maykl Pol Luzmor və Brüs Paron (Böyük Britaniya), “İdman jurnalistikası” magistr ixtisasında elmi rəhbər Den Meyson (Böyük Britaniya), “İdman menecmenti” magistr ixtisasında isə elmi rəhbər Tim Pavlovskidir (Almaniya). [5]

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Amerika Birləşmiş Ştatları, İzrail və Yaponiya səfirlikləri ilə yaxından əməkdaşlıq edirlər.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və Gənclər və İdman Nazirliyinin dəstəyi ilə İsrailin Bakıdakı səfirliyi İdman Akademiyasında “Gender əsaslı zorakılığa qarşı 16 günlük proqram” çərçivəsində özünümüdafiə sessiyaları təşkil etmişdir. Təlim sessiyaları israilli xanım məşqçi Laylak Şif (Lilach Sheeff) tərəfindən təqdim olunmuşdur. Təlim İsrail döyüş sənəti olan Krav Maga-nın əsas hərəkətləri əsasında

qurulmuşdur.

Yaponiyanın İşikava prefekturasının Şika şəhərinin meri Masaru Koizuminin rəhbərliyi ilə nümayəndə heyəti İdman Akademiyasında yaradılan infrastrukturla yaxından tanış olmuş və ingilis dilli magistr ixtisaslarının tələbələrini 2020-ci ildə Tokio şəhərində keçiriləcək XXXII Yay Olimpiya Oyunlarında görəcəyinə ümid etdiyini qeyd etmişdir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında informasiya-kommunikasiya texnologiyaları mərkəzi, tədris, elmi- tədqiqat, təcrübə- sınaq laboratoriyaları, resurs, treninq və s. mərkəzləri yaradılmış və onların müvafiq tədris-metodiki və elmi avadanlıqlarla təchizatı, elektron kitabxana və müasir mətbəə kompleksləri yaraldılmışdir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyinin bu sahədə apardığı iş təcrübəsi onu göstərir ki, tərəflər arasında bağlanan razılaşma ilə yanaşı, birgə işin səlis və aydın qaydaları, prosedurları və tədris prosesinin keyfiyyətinə nəzarət mexanizmi də işlənib hazırlanmalıdır.

Beləliklə, uğurlu birgə proqramlarda tərəfdaşlar arasında elə münasibətlər qərarlaşır ki, bu hal müəyyən qarşılıqlı fəaliyyət normalarının, əlavə edilmiş qarşılıqlı davranış normalarının tanınması və hər iki tərəfin paylaşdığı etik prinsiplərə əməl edilməsi ilə xarakterizə olunur.

Tərəfdaşlar arasındakı bu münasibətlər şəbəkəsi qarşılıqlı maraqlara və qaydalara əməl olunmasının çevik və yetərinçə etibarlı sosial nəzarət sistemini yaradır. Birgə proqramın şəbəkə strukturu münasibətlərin müxtəlif səviyyələrdə sıralanmasını nəzərdə tutur və öz inkişaf məntiqinə malikdir.

İştirakçıların təsəvvüründə qarşılıqlı fəaliyyət üzrə tərəfdaş obrazı tərəfdaşın aşağıdakı göstərilən metodlarla müəyyənləşir: ləyaqətlilik, düzgünlük, məsuliyyət, vədinə riayət etmək, səriştəlilik, öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan bilikli, bacarıqlı şəxsiyyətlərə malik olmaq, ardıcıllıq, etibarlılıq və işin gedişatının sonunu əvvəldən görmək, xeyirxahlıq, tərəfdaşı ruhlandırmağa hazırlıq, açıqlıq, ideya və informasiyaların paylanmasına hazırlıq, psixoloji baxımdan dil tapmağın asanlığı. [9,10,12]

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyinin bu sahədə apardığı iş prinsipinə əsasən, tərəfdaşların hər ikisi üçün faydalı prinsip olan kooperasiyaya istiqamətlənmək, təkcə öz mənfəətinin qayğısına deyil, həm də tərəfdaşın qayğısına qalmaq prinsipi əks olunmalıdır. Bir tərəfdaşın digərinə təkəbbürlü münasibəti, yuxarıdan aşağı baxması, etimadsızlığı və qeyri-səmimiliyi xoşagəlməz nəticələr doğura bilər.

Etimad əməkdaşlığın ən çox müzakirə edilən aspektlərindən biri olmuşdur ki, bu da özlüyündə onun mühümlüyünə dəlalət edir. Tərəfdaşlıqda şübhəsiz ki, etimad zəruridir, çünki tərəflər onların ümumi məqsədlərinin reallaşdırmasının gedişində bir-birindən asılıdırlar. Bundan başqa, etimad yerinə yetirilərkən tərəfdaşların qarşısına çıxan problemlərin həllində mühüm alətdir. İşin bütün elementlərini müqavilə və ya razılaşma yolu ilə nəzərə almaq mümkün olur. Doğrudur, azərbaycanlı respondentlər tərəfdaşlar arasında etimadın olub-olmadığını hər vaxt bilsələr də, onu müəyyənləşdirmək və ölçmək son dərəcə çətin işdir. Etimadın iştirakçılar arasında ən çox istifadə edilən cəhəti, tərəfdaşların öz öhdəliklərini yerinə yetirmələridir.

Etimad onların vədləri üzərində deyil, öhdəliklərin yerinə yetirilməsi üzərində qurulur. Əlamətdardır ki, araş dırılan proqramlarda bir sıra hallarda məhz ağır, çox vaxt böhranlı situasiyalarda isə öhdəliklərin yerinə yetirilməsi etimada əsaslanaraq tərəflərin öhdəliklərinin yerinə yetirmələrinin bünövrəsinə çevrilir. Şəxsiyyətlərarası etimad razılaşdırılmış öhdəliklərin yerinə yetirilməsi üzərində birgə işləyən tərəflərin təmsilçiləri arasında qurulur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyinin təhsildə və elmdə aparılmış qarşılıqlı əlaqələrin nəticəsinə əsasən tərəfdaşlar arasında etimadın formalaşmasını müəyyən edən faktor lar bunlardır: a) birgə proqramın formalaşdırılmasına qədər, artıq mövcud olan etimadın dərəcəsi və tərəfdaşlar arasında əvvəlki əməkdaşlıq təcrübəsi, niyyətlərin təmizliyinin nümayiş etdirilməsi, yaxşı reputasiya, tərəfdaşlar arasında açıqlığın dərəcəsi; b) birgə proqramın realaşdırılması prosesində: birgə proqramların funksionallığının daxili və xarici qaydalarının

təsdiqlənməsi, sistematik informasiya mübadiləsi, hər iki tərəfin risk və faydalarının bərabər dərəcədə üzərlərinə götürülməsi, müəllimlərin və orta idarəedicilərin tərəfdaşlıq fəaliyyətində maraqlı olmaları və buna qoşulması. [9]

Birgə proqramın müvəffəqiyyətliliyi, azərbaycanlı iştirakçılar tərəfindən ümumi hədəf prinsipləri üzərində qurulan təşkilatın yaradılması, sistematik informasiya mübadiləsi, hər iki tərəfin risk və faydalarının bərabər dərəcədə üzərlərinə götürülməsi, birgə proqramların funksionallığının daxili və xarici qaydalarının təsdiqlənməsi qarşılıqlı münasibətlərin idarə edilməsi mövqelərindən qiymətləndirilir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyi, universitetlərin təşkilati-inzibatçıları birgə proqramın önəmini qeyd edərkən aşağıdakı məqamları göstərmişlər: tədris müəssisəsinin prestijliyinin və reytinqinin yüksəlişi, onun nüfuzunun yaxşılaşması, tədris proqramlarının keyfiyyətinin yüksəlməsi, tədris proqramlarının yenilənməsi, tədris prosesinin maliyyələşdirmə qaynaqlarının diversifikasiyası. [9,10]

İdman akademiyasının professor-müəllim heyəti öz faydalarını yeni bilik və vərdişlər əldə etməkdə, xarici tərəfdaşlarla birgə tədqiqatlarda, təhsil bazarında öz rəqabət qabiliyyətliliyini və qiymətini artırmaqda görürlər. Tələbələr keyfiyyətli təhsil xidmətləri görməyi, professional dərəcədə öyrənməyi, mobilliyin artırılmasını, karyera yüksəlişində üstünlük əldə etmələrini və yaxşı nüfuz qazanmalarını yüksək səviyyədə qiymətləndirirlər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında birgə proqramların yaradılmasının, ümumiləşdirilməsinin, eyni zamanda akademiya üçün Avropa ali təhsil məkanına inteqrasiyanın ən kəsə yolunu göstərirlər. Ölkəmizdə bu proqramlar inkişaf etdirildikdə heç şübhəsiz ki, Avropa proqramları və assosiasiyalarının təcrübə və tövsiyələrini nəzərə almaqla öz real imkanlarını, maraqlarını da unutmamalıdırlar.

Birgə proqramlar yaradılarkən idman akademiyası və xarici universitetlərin üzləşdikləri problemlər də bir çox baxımdan bənzərdir. Yəni, əlavə maliyyə qaynaqlarının axtarışı, ölkədə universitetlərin təhsili idarəetmənin mərkəzi orqanlarında dəstək axtarışı, idarəetmənin və müxtəlif ölkələrin universitetlərinin qoşulduğu proqramın keyfiyyətinin təmin edilməsi və dərəcələrin qarşılıqlı tanınmasıdır.

**Diaqram 2**




***Müstəqillik illərində ADBTİA-nın əməkdaşlarının pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alanların qrafiki (1991-2016-ci illər)***

Aparılmış tədqiqatdan belə nəticəyə gəlmək olar ki, akademiyanın kadrları illər üzrə 83 pedaqogika üzrə fəlsəfə doktoru namizədlik dissertasiyası müdafiə etmişlər. Onlardan: 69-u pedaqoji elmlər namizədi, 13-ü bioloji elmlər namizədi, 1-i isə texnika üzrə elmlər doktoru dissertasiyası müdafiə etmişlər. Onlardan, 60-ı azərbaycanlı, 10-u rus, 1-i gürcü, 1-i isə başqa millətdəndir.

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2016-cı ilin mart-avqust aylarında akademiyanın Strateji Planlaşdırma üzrə İşçi Qrupunun üzvləri

Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti,
Acıbadəm Universiteti,
Hacəttəpə Universiteti (42 438 tələbə),
Mərmərə Universiteti (51 000 tələbə),
İstanbul Universiteti (178 901 tələbə),
Ankara Universiteti (66 555 tələbə),
Sofiyada "Vassil Levski" Milli İdman Akademiyası,
Köln Alman İdman Universiteti (6 000 tələbə),
Şeffield Hallam Universiteti (31500 tələbə)
Lyublyana Universitetinə (42 922 tələbə)
səfər etmişlər.




**Tədqiqatın məqsədi:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dünya və Avropa ali təhsil məkanına inteqrasiyası, habelə ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ökələrdə təhsil almalarına dair Dövlət Proqramının icra mexanizmləri də bu proqramla müəyyən edilməsi nəzərdə tutulmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dünya və Avropa ali təhsil məkanına inteqrasiyası, habelə yüksək dərəcəli kadrların hazırlığının müasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

Tədqiqat prosesindən belə **nəticəyə** gəlmək olar ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dünya və Avropa ali təhsil məkanına inteqrasiya sistemi tədqiq olunur.

## Ədəbiyyat

1. Abbasov Ə. Təhsil islahatı və kurikulumların hazırlanması problemləri. //ARTPİ-nin Elmi əsərləri, 2005, №1.
2. "Respublika" qəzetı. "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında". 31 yanvar 2008-ci il.
3. Ağayev Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və təcrübi məsələləri (I məqalə) //ARTPİ-nin Elmi əsərləri, 2003, №1, (II məqalə), 2006, №1.
4. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası. "Azərbaycan müəllimi" qəz., 2006, 17 fevral.
5. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2018-ci ildə aparılmış elmi-tədqiqat işləri haqqında hesabat (Əlyazmasında).
6. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2018-ci ildə aparılmış beynəlxalq əlaqələr haqqında hesabat (Əlyazmasında).
7. Xəlilov S.S. Təhsildə problemlər və vəzifələr. Bakı, Azərbaycan Universiteti, 2002.
8. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (85-illik salnamə). Bakı, Letterpress, 2015, 119 s.
9. Mahmudov M.C. Dünyada və Azərbaycanda təhsil sistemi. Bakı, AzTU-nun nəşri, 2005.
10. Mahmudov M. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı, Elm və təhsil, 2010.
11. Mehrabov A. Ali pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması modeli //Azərbaycan məktəbi, №4, 2009.
12. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı, Mütərcim, 2012.
13. Болошов В.А. Системы оценки качества образования, М: Лодос, 2007.
14. Лиферон А.П. Интеграция мирового образования – реальность третьего тысячелетия. М.: Педагогика, 1997.
15. Guliyev D.G. Aout the Histoqy of the scientific Researches Development of Azerbaijan State Academy of Physical Culture and Sport. Neoı erklnma kaı koınqnıa. Teüxos 3 . Noeubpıos, 2009, s.78-86
16. http://www.azadinform.az

# ИНТЕГРАЦИЯ ГОСУДАРСТВЕННОЙ АКАДЕМИИ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ И СПОРТА В ЕВРОПЕЙСКУЮ СИСТЕМУ ОБРАЗОВАНИЯ

Гулиев Дильгам Гасым оглы
АГАФВиС

**Аннотация:** Просвещение народа с первых же дней формирования национального государства в Азербайджане, создание высших учебных заведений, интеграция образования в мировую систему образования и интеграция высших учебных заведений в Европейские вузы, материально-техническая база образования, качество образования в высших учебных заведениях и конкурентоспособная кадровая подготовка, организация новой системы образования со дня приобретения независимости, ее развитие, государственная политика, разработка программ в области высшего образования, реорганизация и расширение деятельности Азербайджанской Государственной Академии Физической Культуры и Спорта, сотрудничество академии с некоторыми зарубежными университетами, интеграция науки и образования Азербайджанской Государственной Академии физического воспитания и спорта в Европейскую систему образования и другие проблемы нашли свое решение в данной статье.

**Ключевые слова:** мировая система образования, высшее образование в Европе, образование в Азербайджане, высшие учебные заведения, Академия спорта, интеграция, материально-техническая база, кадровый потенциал, цивильные страны, полное среднее образование, среднее профессионально-техническое образование, научно-исследовательские работы, информационно- коммуникационные технологии, Болонья, бакалавр, магистр, учебная программа, “Спортивный менеджмент”, “Спортивная журналистика”, Спортивная медицина и реабилитация.

# INTEGRATION OF SCIENCE AND EDUCATION OF AZERBAIJAN STATE ACADEMY OF PHYSICAL TRAINING AND SPORT T EUROPE EDUCATİON

doctor of pedagogical sciences, professor Guliyev Dilgam Gasim oglu
Azerbaijan State Academy of Physical and Sport education
mr.quliyev.d@gmail.ru

**Summary**: Public education from the first days of the formation of a national state in Azerbaijan, the creation of higher educational institutions, the integration of education into world education system and the integration of higher educational institutions into European universities, the material and technical base of education, the quality of education in higher educational institutions and competitive personnel training, the organization of a new education system since the period of independence, its development, state policy, the development of programs in the field of higher education, reorganization and expansion of the activity of Azerbaijan State Academy of Physical education and Sport, the cooperation of the Academy with several foreign universities  Azerbaijan State Academy of physical educcation and sport to European education system and other problems have been solved in this article.

**Key words:** World Education System, Higher Education in Europe, Education in Azerbaijan, Higher schools, Sport Academy, integration, material and technical basis, staff potential, civil countries, high education, secondary vocational education, research scientific works, information- curriculum, “Sport Management”, “Sport Journalism”, Sports Medicine and Rehabilitation.